**Audit**

***Mehdi Babayev***

«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

## QHT-nin bank hesabından digər ictimai birliyin istifadə etməsi halları

«Qeyri-hökumət təşkilatları (İctimai Birliklər və Fondlar) haqqında» Azərbaycan Respublikasının Qanununun 16.2-ci maddəsində göstərilir ki, qeyri-hökumət təşkilatı yalnız dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusunu əldə edir. Eyni zamanda, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 48.1-ci maddəsində göstərilir ki, hüquqi şəxs müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alınmalıdır. Həmin Məcəllənin 44.1-ci maddəsində də hüquqi şəxsin dövlət qeydiyyatına alındığı andan mülki hüquqlara malik olması və mülki vəzifələr daşıması göstərilmişdir. Deməli, QHT-lər hüquqi şəxs kimi dövlət qeydiyyatına alınmaqla və bu statusdan istifadə etməklə mülki hüquqlar əldə edir və vəzifələr üzərinə götürür. Məsələn, mülkiyyətində olan əmlaka sahib olmaq, müqavilələr bağlamaq, bank hesabları açmaq, müstəqil balansa sahib olmaq, işçiləri işə götürmək, onlarla əmək müqavilələri bağlamaq, lazım olan əşyaları almaq, nümayəndəlik və filiallar yaratmaq və sair hüquqlar əldə edirlər.

QHT-lər dövlət qeydiyyatına alınanadək hüquqi şəxs statusu almaq istəyən qurum kimi adlandırılır. Qanunun 2.0.3-cü maddəsinə görə hüquqi şəxs statusu almaq istəyən qurum - hüquqi şəxs kimi dövlət qeydiyyatına alınması və dövlət reyestrinə daxil edilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına müraciət edən şəxs və ya şəxslər qrupudur.

Bəzən hüquqi şəxs statusu almaq istəyən QHT-nin dövlət qeydiyyatına alınması üçün təqdim etdiyi sənədlərdə dövlət qeydiyyatına alınmasından imtinaya səbəb olan çatışmazlıqlar aşkar edildiyi halda, sənədlər müraciət etmiş şəxsə geri qaytarılır və çatışmazlıqların aradan qaldırılması üçün vaxt verilir. Qeydiyyat sənədlərini vaxtında düzgün tərtib etməklə yenidən müvafiq icra hakimiyyəti orqanına təqdim etmək istəməyən və ya sona qədər dövlət qeydiyyatına alınması anını gözləmək istəməyən bəzi QHT-lər (daha doğrusu, hüquqi şəxs statusu almaq istəyən ictimai qurumlar) dolayısı ilə fəaliyyət göstərməyə çalışırlar və bu halda onlar üçün müəyyən məhdudiyyətlər qaçılmazdır. Həmin qurumlar özlərinə pul və ya digər əşyalar cəlb edə, müqavilələr bağlaya bilmirlər, alqı-satqı və digər mülki əməliyyatlarda iştirak edilməkdən məhrum olurlar. Buna görə də həmin qurumlar başqa, yəni hüquqi şəxs statusu almış digər QHT-lərin status imkanlarından istifadə etmək məcburiyyətində qalırlar.

Dövlət qeydiyyatına alınmadan yaradılan ictimai birlik təşəbbüs qrupları kimi fəaliyyət göstərməkdən və digər QHT-lərlə əməkdaşlıq etməkdən başqa imkanlara malik olmurlar. Dövlət qeydiyyatına alınmadan yaradılmış kimi hesab edilən və fəaliyyət göstərmək istəyən ictimai birliklər (qurumlar) qrant müsabiqələrində iştirak etmək üçün başqa dövlət qeydiyyatına alınmış QHT-nin hüquqlarından, məsələn, bank hesabından, onun adından təsərrüfat əməliyyatlarının həyata keçirilməsi imkanlarından istifadə etməli olurlar.

Auditorlar dövlət qeydiyyatına alınmış QHT-lərdə yoxlamalar apararkən bilavasitə həmin QHT-yə aidiyyəti olmayan digər dövlət qeydiyyatına alınmayan qurumun fəaliyyətini əks etdirən təsərrüfat əməliyyatları ilə rastlaşa bilərlər. Bu halda auditor həmin əməliyyatların uçotunun ayrıca aparılmasına diqqət yetirməli və həmin əməliyyatlarla əlaqədar alınan əsas vəsaitlərin hərəkətini izləməlidir.

QHT-nin bank hesabından istifadə edən digər quruma aidiyyəti olan vəsaitlərin QHT-yə daxil olması və oradan da xərclənməsi ilə bağlı yaranan bütün vergilər və digər məcburi ödənişlər üzrə öhdəliklər QHT tərəfindən yerinə yetirilməlidir. Üçüncü tərəflərlə aparılan bütün təsərrüfat əməliyyatları QHT-nin adına rəsmiləşdirilməli və bu zaman QHT-yə məxsus ciddi hesabat blanklarından istifadə edilməlidir. Alınan mallar, əsas vəsaitlər və digər əşyalar QHT-nin adına rəsmiləşdirilməli və QHT-nin mülkiyyəti kimi tanınmalıdır. Qrant layihəsi başa çatdıqdan sonra digər quruma aidiyyəti olan əsas vəsaitlərin QHT-dən quruma təhvil verilməsi əsas vəsaitlər üzərində

mülkiyyət hüququnun dəyişməsi kimi qiymətləndirilməli və Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq QHT müvafiq vergilərə cəlb olunmalıdır. QHT-nin maliyyə hesabatlarında digər quruma aidiyyəti olan alınmış qrant vəsaitlərinin daxil olması və xərclənməsi ilə bağlı əməliyyatlar ayrıca açıqlanmalıdır.